Ədəbiyyat qəzeti

2 oktyabr / 2021

# *Bakı Beynəlxalq Kitab Yarmarkasında uşaqlar üçün bir sıra tədbirlər təşkil olunacaq*

**Bakı Beynəlxalq Kitab Sərgisi**

**Baku International Book Fair**

**6-10 Oktyabr**

Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında uşaqlar üçün bir sıra tədbirlər təşkil olunacaq.

Sərgi-yarmarka zamanı "Tık-Tık xanım", "Cırtdan" uşaq tamaşası, uşaqlar və böyüklər üçün müxtəlif master- klaslar, ebru (su üzərində rəsm sənəti) və s. nümayiş olunacaq. Yazıçı Solmaz Amanova milli Azərbaycan nağıllarının personajlarını təqdim edəcək və hər bir uşağa paltarını dəyişərək nağıl qəhrəmanı obrazında olmaq imkanı veriləcək. Yazıçı Mürşüd İsmayılzadə ilə intellektual oyunlar keçiriləcək.

Sərgi-yarmarka çərçivəsində N.Gəncəvinin əlilliyi olan uşaqlar üçün işarə dilinə tərcümə edilmiş "Yeddi gözəl" kitabının elektron versiyasının təqdimatı da gerçəkləşəcək.

Qeyd edək ki, oktyabrın 6-dan 10-dək Bakı Ekspo Mərkəzində 7-ci Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək. Sərgi-yarmarkanın məqsədi kitab və mütaliəni təbliğ edəcək və populyarlaşdırmaq, ziyarətçiləri həm Azərbaycan, həm də xarici nəşriyyatların çap məhsulları ilə tanış etmək, nəşriyyat işinə dəstək vermək, nəşriyyatları potensial əməkdaşlıq üçün kitab mağazaları ilə tanış etmək, eləcə də rəqəmsal dövrdə kitab biznesinin inkişafı ilə bağlı təcrübə və fikir mübadiləsini təmin etməkdir.

Kitab sərgi-yarmarkası dünya ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunacaq.